*Layihə*

**Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısının və Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və qaydasının təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.17-ci və 1.1.18-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. **"**Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və qaydası" təsdiq edilsin (əlavə olunur).
2. "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısı" təsdiq edilsin (əlavə olunur).
3. Bu Qərar İkinci Dünya müharibəsi iştirakçılarına, fövqəladə hallarda, terror hadisələrində insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək zərər çəkmiş şəxslərə da şamil edilir.
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İkinci Dünya müharibəsi iştirakçılarının protez-ortopediya məmulatları, əlilliyi olan şəxslərin, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərək ziyan çəkmiş vətəndaşların protez-ortopediya məmulatları, əlil kreslo-veloarabaları, texniki və başqa reabilitasiya vasitələri ilə təmin edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2002-ci il 8 iyul tarixli 103 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 443; 2008, № 2, maddə 130; 2011, № 1, maddə 54; 2016-cı il, №11, maddə 1976) və "Xüsusi nəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında" 1993-cü il 5 avqust tarixli 433 nömrəli qərarının 1-ci, 2-ci və 3-cü hissələri (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №9 , maddə 1729; ) ləğv edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri Novruz Məmmədov**

Bakı şəhəri, ___________________2019-cu il

*Layihə*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il___tarixli _____nömrəli qərarı ilə təsdiq edilmişdir*

**Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi şərtləri və qaydası**

**1. Ümumi müddəalar**

1.1 Bu Qayda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən hazırlanmışdır və əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsinin şərtlərini və qaydasını tənzimləyir.

1.2 Əlilliyi olan şəxslərə (istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər istisna olmaqla) reabilitasiya vasitələri hər il Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti (bundan sonra - Xidmət) üçün ayrılmış büdcə təxsisatları çərçivəsində ödənişsiz verilir.

1.3 İstehsalatda bədbəxt hadisə və ya peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər reabilitasiya vasitələri ilə əlilliyə səbəb olmuş təqsirkar işəgötürən hesabına təmin edilirlər.

1.4 İşəgötürən ləğv edildikdə, fəaliyyəti dayandıqda ixtisar olunan əlilliyi olan şəxslər ümumi xəstəlik səbəbi ilə əlilliyi olan şəxslərin istifadə etdiyi imtiyazlardan istifadə edirlər və onların reabilitasiya vasitələri ilə təminatı dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir.

1.5 Reabilitasiya vasitələri ilə təmin edilməni tibbi göstərişlər olduğu halda Xidmətin və TSEK-lərin mütəxəssislərinin rəyi əsasında Fərdi Reabilitasiya Proqramında müəyyənləşdirilmiş göstərişlərə əsasən Xidmətinin tabeliyindəki Protez-ortopedik bərpa mərkəzi (bundan sonra - Mərkəz) səyyar, ambulator və stasionar formada həyata keçirir.

1.6 Reabilitasiya vasitələrinin təyininə və onun keyfiyyətinə nəzarəti "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 30.3-cü maddəsinə əsasən həyata keçirilir.

1.7 Hüququ olan əlilliyi olan şəxslərə mühərrikli təkərli oturacaq və minik avtomobili onların müraciətləri əsasında Xidmətin qərarına əsasən təyin edilir və MEİS üzərindən növbəlilik siyahısına əlavə olunur.

1.8 Tibbi göstərişlər üzrə xüsusi nəqliyyat vasitəsi almaq hüququna malik əlilliyi olan şəxslər minik avtomobili və mühərrikli təkərli oturacaqla növbəlilik qaydasında təmin olunurlar. Əlilliyi olan şəxs vəfat etdikdə ailə üzvləri və digər şəxslər üçün növbəlilik saxlanılmır.

1.9 Minik avtomobili və mühərrikli təkərli oturacaq almaq hüququna malik əlilliyi olan şəxsə yalnız nəqliyyatın bir növü pulsuz təyin edilə bilər. Əgər əlilliyi olan şəxs nəqliyyatın ikinci növündən də istifadə etmək istərsə onda ikinci nəqliyyat vasitəsi ödənişlə verilir.

1.10 Əlilliyi olan şəxslər tibbi göstəriş olduğu halda eyni zamanda həm qapalı məkanda (otaqda), həm də açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaqla təmin olunmaq hüququna malikdirlər.

1.11 Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə, 1990-cı il Bakı şəhərində və Respublikanın digər yaşayış məntəqələrində baş vermiş faciəli yanvar hadisələri nəticəsində əlilliyi olan şəxslərə, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirakla bağlı əlilliyi olan şəxslərə və II Dünya müharibəsi nəticəsində əlilliyi olan şəxslərə və onlarla bərabər tutulanlara dövlət büdcəsi hesabına minik avtomobili tibbi göstəriş olduğu hallarda istifadə müddəti müəyyən edilmədən birdəfəlik verilir.

1.12 Bu Qaydanın 1.19-cu maddəsində nəzərdə tutulmuş hal istisna olunmaqla əlilliyi olan şəxslərə verilmiş minik avtomobilin və mühərrikli təkərli oturacağın satılması və bağışlanması qadağandır. Minik avtomobilini idarə etmək hüququ həm əlilliyi olan şəxsə, həm də onunla eyni yaşayış məntəqəsində yaşayan ailə üzvünə verilir.

1.13 Avtomobil və mühərrikli təkərli oturacaq almaq hüququna malik, tibbi göstərişi olan və onları idarə etməyə əks göstərişi olmayan istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə, minik avtomobili və mühərrikli təkərli oturacağı özü idarə edə bildiyi halda həmin avtomobil və mühərrikli təkərli oturacağın dəyərinin 100 faizinin təqsirkar işəgötürən tərəfindən ödənildiyi zaman verilir.

1.14 Nazirliyin tabeliyindəki sosial xidmət müəssisələrində tam dövlət təminatında olan əlilliyi olan şəxslərə minik avtomobili verilmir.

1.15 Əlilliyi olan şəxslərə mühərrikli təkərli oturacağın idarə edilməsi bacarıqları üzrə təlimlər Nazirlik tərəfindən təşkil edilir.

1.16 Əmək xəsarəti və peşə xəstəliyi səbəbli əlilliyi olan şəxslərin minik avtomobilinin və mühərrikli təkərli oturacağın idarə edilməsi bacarıqları üzrə təlim xərcləri təqsirkar işəgötürən tərəfindən ödənilir.

1.17 Mühərrikli və mexaniki təkərli oturacağın istifadə müddəti bitdikdən sonra Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.

1.18 Yeni təkərli oturacaq (mexaniki və mühərrikli) istifadə müddəti başa çatmış təkərli oturacaq Mərkəzə təhvil verildikdən sonra təqdim olunur.

1.19 Minik avtomobil verilmiş əlilliyi olan şəxs vəfat etdikdən sonra avtomobil onun ailəsinin mülkiyyətində qalır və qeydiyyatdan çıxarılır. Minik avtomobili vəfat etmiş əlilliyi olan şəxsin ailə üzvündən birinin adına keçirilir.

1.20 Əlilliyi olan şəxslərə verilmiş mühərrikli və mexaniki təkəli oturacaqlar, protez-ortopedik məmulatlar, reabilitasiya vasitələri istifadə müddəti başa çatanadək yararsız vəziyyətə düşdükdə, əlilliyi olan şəxs yaxud onu təmsil edən şəxs tərəfindən Mərkəzə təqdim edilmiş təkərli oturacağa texniki baxış keçirilir, təmiri mümkün olmadıqda Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.

## 2. Əlilliyi olan şəxslərə mühərrikli və mexaniki təkərli oturacağın, minik avtomobilinin verilməsinə tibbi göstərişlər.

2.1. Təkərli oturacaq təyinində tibbi göstərişlə yanaşı əlilliyi olan şəxsin yaşı, çəkisi, boyu nəzərə alınır.

2.2. Qapalı məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacağa dair tibbi göstəriş, əlilliyi olan şəxslərin dayaq hərəkət sistemində, ürək qan-damar sistemində, tənəffüs sistemində, həzm sistemində və başqa sistemlərdə xəstəlik, travma və anadan gəlmə inkişaf patalogiyaları nəticəsində hərəkətin dayanıqlı kəskin məhdudlaşması olduğu hallarda təyin edilir.

2.2.1. Qapalı məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacaq təyininə tibbi göstəriş aşağıdakılardır:

2.2.1.1. Üçüncü dərəcəli xroniki qan dövranı çatışmazlığı;

2.2.1.2. Üçüncü dərəcəli ağciyər-ürək çatışmazlığı;

2.2.1.3. Hemiplegiya, nəzərə çarpan hemiparez, aşağı paraplegiya, nəzərə çarpan aşağı paraparez, triplegiya, nəzərə çarpan triparez, nəzərə çarpan tetraparez;

2.2.1.4. Kəskin nəzərə çarpan ataksiya hiperkinetik amiostatik sindrom;

2.2.1.5. Bir aşağı ətrafın güdülü və bununla yanaşı digər aşağı ətrafın funksional yararsız vəziyyətdə olması;

2.2.1.6. Hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü protezləşməyə yararlı olmasından asılı olmayaraq;

2.2.1.7. Hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;

2.2.1.8. Aşağı ətraf oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;

2.2.1.9. Bədxassəli şişlər IV klinik qrup;

2.2.1.10. Dərin ağıl zəifliyi. Demensiya;

2.2.1.11. III-IV dərəcəli böyrək çatışmazlığı;

2.2.1.12. Qaraciyər çatışmazlığı III dərəcə. Portal hipertenziya, assit;

2.2.1.13. Xroniki arterial çatışmazlığı III mərhələ;

2.2.1.14. Xroniki venoz çatışmazlığı III dərəcə;

2.3. Açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaq təyininə tibbi göstəriş əlilliyi olan şəxslərin dayaq hərəkət sistemində, ürək qan-damar sistemində, tənəffüs sistemində, həzm sistemində və başqa sistemlərdə xəstəlik, travma və anadan gəlmə inkişaf patalogiyaları nəticəsində hərəkətin dayanıqlı kəskin məhdudlaşması olduğu hallarda (hər iki yuxarı ətrafda hərəkətsizlik və yaxud kəskin hərəkət məhdudluğu istisna olmaqla) təyin edilir.

2.3.1.Açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaq təyininə tibbi göstəriş aşağıdakılardır:

2.3.1.1. III dərəcəli xroniki qan dövranı çatışmazlığı;

2.3.1.2. III dərəcəli ağciyər-ürək çatışmazlığı;

2.3.1.3. Hemiplegiya, nəzərə çarpan hemiparez, aşağı paraplegiya, nəzərə çarpan aşağı paraparez;

2.3.1.4. Bir aşağı ətrafın güdülü və digər aşağı ətrafın funksional yararsız vəziyyətdə olması;

2.3.1.5. Hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü protezləşməyə yararlı olmasından asılı olmayaraq;

2.3.1.6. Hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;

2.3.1.7. Aşağı ətraf oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;

2.3.1.8. Bədxassəli şişlər IV klinik qrup;

2.3.1.9. III-IV dərəcəli böyrək çatışmazlığı;

2.3.1.10. Qaraciyər çatışmazlığı III dərəcə. Portal hipertenziya, assit;

2.3.1.11. Xroniki arterial çatışmazlığı III mərhələ;

2.3.1.12. Xroniki venoz çatışmazlığı III dərəcə;

2.4. Mühərrikli təkərli oturacaq həm yuxarı, həm də aşağı ətraflarda hərəkətin kəskin məhdudlaşması olan əlilliyi olan şəxslərə təyin edilir.

2.4.1. Mühərrikli təkərli oturacaq təyininə tibbi göstəriş aşağıdakılardır:

2.4.1.1. Hemiplegiya, nəzərə çarpan hemiparez, aşağı paraplegiya, nəzərə çarpan aşağı paraparez;

2.4.1.2. Bir aşağı ətrafın güdülü və digər aşağı ətrafın funksional yararsız vəziyyətdə olması;

2.4.1.3. Hər iki aşağı ətrafın müxtəlif səviyyədə güdülü, protezləşməyə yararlı olmasından asılı olmayaraq;

2.4.1.4. Hər iki ayaq pəncəsinin Şopar oynağı səviyyəsində amputasion güdülü;

2.4.1.5. Aşağı ətraf oynaqlarının endoprotezləşməsindən sonrakı ağırlaşmalar olduğu halda;

2.4.1.6. Xroniki arterial çatışmazlığı III mərhələ;

2.4.1.7. Xroniki venoz çatışmazlığı III dərəcə;

2.4.2. Mühərrikli təkərli oturacaq, 2.5.1.-ci bənddə sadalanan patalogiyalar aşağıda qeyd olunmuş yuxarı ətrafların patologiyaları ilə birlikdə əlilliyi olan şəxslərdə olduğu hallarda təyin edilir:

2.4.2.1. Hər iki yuxarı ətrafın hərəkətsizliyi;

2.4.2.2. Hər iki yuxarı ətrafda hərəkətin kəskin məhdudlaşması, çiyin və dirsək oynaqlarında aktiv hərəkətin amplitudası 13-20$^0$, biləkdə 9-14$^0$–dən aşağı olduqda kontraktura nəticəsində barmaqlar ovucdan 3-4 sm aralı qalarsa, xırda əşyaları tutmağın və iri əşyaları uzun müddət ərzində saxlamağın imkansızlığı, yuxarı ətrafın əzələ gücünün 2 bala qədər

enməsi və hər iki yuxarı ətrafda çiyin əzələlərinin 6,0-6,5 sm-ə qədər, bazunun ön əzələlərinin isə 3,5-4,0 sm atrofiyası nəticəsində yaranan əhəmiyyətli funksiya pozuntusu.

2.4.3. Mühərrikli təkərli oturacaq istifadəsinə əks göstərişlər aşağıdakılardır:

2.4.3.1. Ağır və dərin əqli çatışmazlıq, demensiyalı ruhi pozuntular;

2.4.3.2. Epileptik sindrom;

2.4.3.3. Əhəmiyyətli görmə məhdudiyyəti (əlilliyi olan şəxsin hər iki gözünün görmə itiliyi 0,04-dən aşağı və ya görmə sahəsi 5 dərəcədən aşağı olduqda);

2.4.3.4. Stenokardiya IV funksional sinif;

2.4.3.5. Statika və hərəkət kordinasiyalarının əhəmiyyətli ciddi pozuntuları;

2.4.3.6. Yuxarı ətraflarda və gövdənin yuxarı hissəsində tam hərəkətsizlik;

2.4.3.4. III dərəcəli xroniki ürək çatışmazlığı;

2.4.3.8. III dərəcəli tənəffüs çatışmazlığı;

2.4.3.9. Həzm orqanı xəstəlikləri (III dərəcəli bədən kütləsi defisiti, qaraciyər sirrozu assitlə, mütəmadi qan axmalarla ağırlaşan qida borusunun və mədənin III dərəcəli damar genişlənməsi);

2.4.3.10. Genital-urinar sistemi xəstəlikləri, III dərəcəli xroniki böyrək çatışmazlığı sistemli hemodializə əks göstəriş olduqda;

2.4.3.11. Bəd xassəli törəmələr IV kliniki qrup

2.4.3.12. Narkomaniya, II-III dərəcəli xroniki alkoqolizm.

2.5. Minik avtomobili təyininə tibbi göstəriş aşağıdakılardır:

2.5.1. İkinci (II Б) dərəcəli xroniki qan dövranı çatışmazlığı;

2.5.2. II dərəcəli ağciyər çatışmazlığı;

2.5.3. Bir aşağı ətrafın iflici və ya nəzərə çarpan parezi;

2.5.4. Hemiplegiya, nəzərə çarpan hemiparez;

2.5.5. Nəzərə çarpan ataksiya, hiperkinetik amiostatik sindrom;

2.5.6. Hər iki aşağı ətrafın xroniki trombooblіterasiya edici xəstəlikləri II dərəcə arterial çatışmazlıqları. Aşağı ətraf venalarının xəstəlikləri hər iki aşağı ətrafda ikinci-üçüncü dərəcə venoz çatışmazlığı trofiki pozuntularla;

2.5.7. Hər iki aşağı ətrafın fillik xəstəliyi;

2.5.8. Hər iki pəncənin Şopar  üzrə yaxud daha yüksək səviyyədə güdülü;

2.5.9. Aşağı ətrafın baldır yaxud bud səviyyəsində güdülü;

2.5.10. Hər iki bud-çanaq oynağının aniklozu;

2.5.11. Onurğanın ayaq üstə durmağı və hərəkəti xeyli çətinləşdirən xəstəlikləri, deformasiyaları. Onurğa sütunu funksiyasının kəskin nəzərə çarpan pozulması ilə müşahidə olunan III-IV dərəcəli əyilmələri;

2.5.12. Bir aşağı ətraf və ya çanaq qurşağı sümüklərinin xroniki osteomieti (2 ildən artıq gedişli fistula və ya sekvestrli boşluqların olması ilə);

2.5.13. Aşağı ətrafda böyük ölçülü (sümuk çevrəsininin yarısından artığı dağıldıqda) sümük defekti və yaxud uzun müddət sağalmayan xora (10 $sm^2$ dan böyük) olduqda;

2.5.14. Hər iki bud və ya baldır sümüklərinin əyri bitişmiş sınığı nəticəsində aşağı ətrafın funksiyasının kəskin pozulması, hər iki bud-çanaq yaxud hər iki diz oynaqlarında kəskin konraktura olduğu halda;

2.5.15. Əlilliyi olan şəxsin hər iki gözünün görmə itiliyi 0,04-dən aşağı və ya görmə sahəsi 5 dərəcədən aşağı olduqda.

## 3. Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin, protez-ortopediya məmulatlarının verilməsinə göstərişlər, istifadə müddətləri

3.1. Yuxarı və aşağı ətraf protezləri yuxarı və aşağı ətrafın hissəvi yaxud tam itirilməsi və inkişaf çatışmazlığı nəticəsində yaranmış kosmetik və funksional çatışmazlığın bərpası üçün

istifadə edilən texniki vasitədir. Protezlər sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar (bundan sonra – uşaqlar) və 18 yaşdan yuxarı əlilliyi olan şəxslər (bundan sonra -böyüklər) üçün nəzərdə tutulur. Hər bir güdülün protezləşməsindən əvvəl güdülün protezə hazırlanması (müalicəsi) mərhələsi keçirilir. Protezlər yerindən və növündən asılı olaraq müxtəlif müddətə verilir.

3.1.1. Yuxarı və aşağı ətrafların protezləri aşağıdakı müddətlərdə verilir:

3.1.1.1. yuxarı və aşağı ətrafın böyüklər üçün protezləri - 1 ədədi 2 il müddətinə;

3.1.1.2. yuxarı və aşağı ətraf protezləri 18 yaşa qədər uşaqlar üçün – 1 ədədi 1 il müddətinə;

3.1.1.3. yuxarı və aşağı ətraf üçün ilk dəfə qoyulmuş protezlərə qəbuledici gilizlər - 3 aydan sonra dəyişdirilib, daimi olan gilizlə ilə əvəz olunur;

3.1.1.4. pəncə, əl protezləri, barmaq protezləri - 6 ay müddətinə;

3.1.1.5. ehtiyat protezləri (yuxarı ətraflara iş üçün verilir) – 1 ədədi 2 il müddətinə;

3.1.1.6. Yuxari və aşağı ətraf protezləri üçün kosmetik üzlüklər - 1 ədədi 3 ay müddətinə;

3.1.1.7. Aşağı və yuxarı ətraf və onun ayrı-ayrı bölmələri üçün aparatlar - əlilliyi olan şəxsin ətraflarına və yaxud onun bölmələrinə hərəkətin bərpası üçün yaxud deformasiyaların qarşısını almaq üçün geydirilir. Yuxarı ətraflara böyüklər üçün 2 illik, uşaqlara 1 illik verilir. Aşağı ətraflara ildə 1 dəfə verilir.

3.1.2. Əlilliyi olan şəxsin aşağı və ya yuxarı ətraflarında hər hansı xəstəlik (re-amputasiya, allergiya, güdüllərdə baş verən dəyişiklik) yaranarsa, verilmiş protez-ortopedik məmulatlar Xidmətin qərarı ilə Mərkəz tərəfindən təmir edilir və yaxud vaxtından əvvəl dəyişdirilir.

3.1.3. Yüksək texnologiyalı protezlər - Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı xüsusi fərqlənməklə yaralanıb ətrafını itirmiş, əlilliyi olan hərbiçilərə xidmət keçdiyi orqanın təqdimatına əsasən verilir – 1 ədədi 3 ildən az olmayan müddətə verilir.

3.2. corablar (xovlu, yun, pambıq, neylon və s.) – 10 ədədi 1 il müddətinə;

3.3. dermo corablar – 1ədədi 1 il müddətinə;

3.4. tutorlar – ətrafların və onun bölmələrinin oynaqlarının və hissələrinin hərəkətsiz fiksasiyası üçün təyin edilir və aşağı ətraflar üçün 1 illik müddətə;

3.5. korset - gövdənin zədələnməsi və deformasiyası zamanı qarın boşluğu və qarın divarı xəstəliklərində, onurğanın normal funksionoloji vəziyyətdə fiksasiyası, onun yükünün azaldılması və bəzi deformasiyaların korreksiyası üçün istifadə edilir. 1 ədədi böyüklər üçün 1 il müddətinə, uşaqlar üçün 6 ay müddətinə verilir;

3.6. reklinator – onurğa sütununun yuxarı döş hissəsində statodinamik funksiyanın pozulmasında təyin edilir. İldə 1 ədəd böyüklərə, 6 aydan bir olmaqla uşaqlara ildə 2 dəfə verilir;

3.7. bandajlar – qarın ön divarının yırtıqlarında qarın boşluğu orqanlarının qorunması, qarın divarının möhkəmləndirilməsi üçün istifadə olunan, oynaqların bağ aparatı və əzələlərin qorunması, imobilizasiyası üçün istifadə edilən ortopedik məmulatdır. Bandajların boyun, oynaq, döş qəfəsi, qarın divarı, qasıq üçün olan növləri təmin edilir. 1 ədədi 6 ay müddətinə verilir;

3.8. əsalar (tək, 3 və ya 4 ayaqlı) - 1 ədədi 1 il müddətinə verilir;

3.9. qoltuqaltı və dirsəkaltı ağaclar 1 cütü 1 il müddətinə verilir;

3.10. reabilitasiya vasitələri üçün rezin ucluq – 5 cüt 1 il müddətinə verilir;

3.11. ortopedik ayaqqabı — ayaq pəncəsinin deformasiyası və çatışmazlığı nəticəsində ayaq pəncəsinin itirilmiş funksiyasının bərpası, hərəkətin asanlaşması üçün hər bir əlilliyi olan şəxs üçün fərdi hazırlanır. 1 ədədi 6 ay müddətinə olmaqla ildə 2 dəfə qış və yay fəsli üçün verilir;

3.12. protez üçün ayaqqabılar – aşağı ətraf protezləri üçün hazırlanır. 1 cütü 6 ay müddətinə ildə 2 dəfə verilir;

3.13. hər iki əli amputasiya olunmuş şəxslər üçün rezin yanlıqlı ayaqqabılar - 1 cütü 1 il müddətinə verilir;

3.14. geyinmə, soyunma və tutma üçün yardımçı vasitələr – yardımçı vasitələr yaşayış sahələrində yemək hazırlama, qab yuma, ayaqqabı geyinib soyunma, qapı pəncərənin açılıb bağlanması və s. üçün istifadə edilir – 5 il müddətinə verilir;

3.15. oynaqların endoprotezləşməsi – aşağı və yuxarı ətrafın iri oynaqlarında gedən patoloji dəyişikliklər nəticəsində oynaqlarda kəskin hərəkət pozuntusu və ağrı sindromu olduqda həyata keçirilir;

3.16. süd vəzi protezi – aparılmış mastoektomiya əməliyyatından sonra süd vəzi yerində yaranmış kosmetik çatışmazlığı aradan qaldırmaq üçün istifadə edilir. 1 ədədi 1 il müddətinə verilir. Süd vəzi protezlərinin fiksasiyası byüsqalterlərlə aparılır. Protez və byüsqalter birlikdə verilir;

3.17. səs protezi - qırtlağın zədələri, anadangəlmə inkişaf pozuntuları və xəstəlikləri nəticəsində larinqoektomiyadan sonra istifadə edilir. 1 ədədi 1 il müddətinə verilir;

3.18. diş protezləri - dişlərin itirilməsi, anadangəlmə olmaması, çənənin alveolyar çıxıntısı və çənə sümüyünün inkişaf pozulmalarında, əməliyyatlardan sonrakı çənə sümüyü çatışmazlığı zamanı təyin edilir. Böyüklər üçün 2 il müddətinə, uşaqlar üçün 1 il müddətinə təmin edilir;

3.19. göz protezləri - göz almasının inkişafdan qalması və ya olmaması (anoftalm) halında istifadə edilir. Kosmetik çatışmazlığı aradan qaldırmaq üçün istifadə edilir. Protezin ölçüsü, rəngi sağlam gözə uyğun olmalıdır. 1 ədəd göz protezi 2 il müddətinə verilir;

3.20. eşitmə aparatı - həkim-surdoloqun tibbi rəyinə əsasən III-IV dərəcə eşitmə məhdudluğu olan xəstələrə təyin edilir. 1 və ya 2 ədədi 2 il müddətinə verilir.

3.21. qulağın, burunun, sifətin, göz yuvasının damağın protezləşməsi. Qulaq, burun və sifətin anadangəlmə inkişaf çatışmazlığı, zədə və xəstəliklər (əksər hallarda onkoloji) nəticəsində aparılmış əməliyyatlardan sonra əmələ gəlmiş kosmetik çatışmazlığı aradan qaldırılması üçün hazırlanır. Protezlər böyüklər üçün 2 il müddətinə, uşaqlar üçün 1 il müddətinə qoyulur.

3.22. sanitar-təchizatlı təkərli oturacaq - 1 ədədi 2 il müddətinə verilir;

3.23. qapalı məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacaq - 4 il; açıq məkanda istifadə üçün mexaniki istifadə olunan təkərli oturacaq - 3 il; mühərrikli təkərli oturacaq - 5 il müddətinə verilir.

3.24. döşəkcə, ortopedik döşək və yastıqlar - yataq vəziyyətində olan xəstələrdə yaxud təkərli oturacaqdan uzun müddət istifadə edən əlilliyi olan şəxslərdə dəridə xoralaşmanın əmələ gəlməsinin qarşısının alınması üçün istifadə olunur - 1 ədədi 1 il müddətinə verilir.

3.25. “Danışan kitab” görmə əlilliyi olan şəxslər üçün – 1 ədədi 7 il müddətinə verilir;

3.26. səsli tibbi tonometr və termometrlər görmə əlilliyi olan şəxslərin arterial təzyiqi ölçmək və bədən hərarətini ölçmək üçün istifadə edilir. Hər biri 7 il müddətinə verilir.

3.27. kolostoma torbası - xəstəlik və yaxud travma nəticəsində bağırsaqdan ifrazatın xaric olunması pozulduğu halda təmin edilir. Ayda 90 ədəd verilir.

3.28. urestoma torbası - xəstəlik və yaxud travma nəticəsində sidik kisəsindən sidiyin xaric olunması pozulduğu halda təmin edilir. Ayda 90 ədəd verilir.

3.29. Katetr – Sidik kisəsi və sidik kanalından sidik ifrazının xaric edilməsinin çətinləşdiyi halda istifadə edilir. Ayda 5 ədəd verilir.

3.30. Hərəkətli qaldırıcı qurğu – aşağı və yuxarı ətrafların paraparezi və paraplegiyası olan əlilliyi olan şəxslərin bir vəziyyətdən digərinə keçirilməsi üçün köməkçi vasitə. 1 ədədi 8 il müddətinə verilir.

3.31. Uşaqların inkişafı ilə əlaqədar, onlar üçün reabilitasiya vasitələrinin (təkərli oturacaq istisna olmaqla) istifadə müddəti və təkrar reabilitasiya vasitələri ilə təmin edilmə müddəti ildə iki dəfədən az olmayaraq Xidmətin qərarı ilə müəyyən edilir.

## 4. Reabilitasiya vasitələrinin zəmanət müddətləri

4.1. Reabilitasiya vasitələri üçün aşağıdakı zəmanət müddətləri müəyyən edilir. Zəmanət müddəti reabilitasiya vasitələrinin şəxsə təhvil verildiyi gündən hesablanır:

4.1.1. təkərli oturacaq - 6 ay;

4.1.2. süd vəzinin protezi - 40 gün;

4.1.3. yuxarı və aşağı ətraf protezləri, ortezlər - 6 ay;

4.1.4. korset, obtürator, reklinatorlar, müalicə bandajları, supinator və pronatorlar - 2 ay;

4.1.5. bütün növlərdən olan ortopedik ayaqqabılar və protezlər üçün ayaqqabılar - 40 gün;

4.1.6. eşitmə aparatı - 6 ay;

4.1.7. səs protezi - 3 ay.

4.2. reabilitasiya vasitələri verilmiş şəxslərin təqsiri olmadan onlar üçün verilmiş reabilitasiya vasitələri müəyyən edilmiş zəmanət müddəti ərzində yararsız hala düşdükdə, həmin şəxslərin onları geri qaytarmaq hüququ vardır.

## 5. Protez-ortopedik məmulatların hazırlanma və təmir müddətləri

5.1. Protez-ortopedik məmulatları və ortopedik ayaqqabılar aşağıda göstərilən müddətlərdə hazırlanır:

5.1.1. modeli çıxarılmadan - 25 iş günü;

5.1.2. korsetlər, obturator, reklinatorlar, müalicəvi bandajlar, supinator və pronatorlar - 8 iş günü.

5.2. Məmulatların hazırlanma müddətinə aşağıdakı müddətlər əlavə olunur:

5.2.1. modelin çıxarılması - 8 iş günü;

5.2.2. əlavə yoxlamanın (iki dəfədən artıq) təyin edilməsi, xüsusi yarımfabrikat hazırlanmaqla - 8 iş günü;

5.2.3. ikitərəfli zədə və amputasiya zamanı hazırlanan məmulatlar üçün - 25 iş günü.

5.3. Protez-ortopedik məmulatların təmiri aşağıdakı müddətlərdə aparılır:

5.3.1. əsaslı təmir - 10 iş günü;

5.3.2. cari təmir - 5 iş günü.

5.4. Protez-ortopedik məmulatların hazırlanma və ya təmir müddəti, sifariş Mərkəz tərəfindən qəbul edildiyi gündən hesablanır.

5.5. Sifariş qəbul edilərkən, yaxud yoxlama zamanı şəxsə yoxlama və ya hazır məmulatın alınma vaxtı haqqında məlumat verilir.

5.6. Səyyar protez xidməti göstərilərkən protez-ortopedik məmulatları, eləcə də ortopedik ayaqqabılar üçün qəbul edilmiş sifarişlər 40 iş günü müddətinə yerinə yetirilir.

5.7. Eksperimental-sınaq qaydasında düzəldilən, qeyri-tipik və xüsusi mürəkkəb məmulatların hazırlanma müddətləri fərdi olaraq mərkəzin tibbi-texniki komissiyasının qərarı ilə müəyyənləşdirilir.

## 6. Protez-ortopedik məmulatların, ortopedik ayaqqabıların hazırlanması və təmiri üçün sifarişlərin sənədləşdirilməsi

6.1. Şəxsin müraciəti (şəxsiyyət vəsiqəsi əsasında) Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Bərpa mərkəzləri tərəfindən əlilliyi olan şəxslərə göstərilən xidmətlərin uçotu alt sistemi"ndə dərhal qeydə alınır və protezləşmə vərəqəsi (xəritəsi) və sifariş blankı açılır.

6.2. Protezləşmə vərəqəsi (xəritəsi), sifariş blankı protez-ortopedik məmulatlarının və ortopedik ayaqqabıların hazırlanması (təmiri) üçün əsas sənədlərdir. Protezləşmə vərəqəsi mərkəzin həkimi tərəfindən doldurulur. Protezləşmə vərəqəsində şəxsin anket məlumatları və əvvəllər protez-ortopedik məmulatları və ortopedik ayaqqabı ilə təmin edilməsi barədə məlumatlar qeyd olunur. Sifariş blankında şəxsin protez-ortopedik məmulatına ehtiyacı müəyyənləşdirilir, sifarişin növü və həcmi qeyd olunur.

6.3. Protezləşmə, protez-ortopedik məmulatlarının və ortopedik ayaqqabıların hazırlanması və təmiri ilə bağlı vəzifəli şəxslərin hərəkətlərindən (hərəkətsizliklərindən) “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

*Layihə*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2019-cu il______tarixli _____nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

**Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısı**

1. Yuxarı və aşağı ətraf protezləri;
2. Yüksək texnologiyalı protezlər;
3. Corablar (xovlu, yun, pambıq, neylon və s);
4. Dermo corablar;
5. Tutorlar;
6. Korset;
7. Reklinator;
8. Bandajlar;
9. Əsa tək ayaqlı;
10. Əsa üç ayaqlı;
11. Əsa dörd ayaqlı;
12. Qoltuqaltı ağac;
13. Dirsəkaltı ağac;
14. Reabilitasiya vasitələri üçün rezin ucluq;
15. Ortopedik ayaqqabı;
16. Protez üçün ayaqqabılar;
17. Rezin yanlıqlı ayaqqabılar (Hər iki əli amputasiya olunmuş şəxslər üçün);
18. Geyinmə, soyunma və tutma üçün yardımçı vasitələr;
19. Oynaq endoprotezləri;
20. Süd vəzi protezi;
21. Süd vəzi byusqalteri;
22. Səs aparatı;
23. Diş protezləri;
24. Göz protezləri
25. Eşitmə aparatı
26. Qulaq protezi;
27. Burun protezi;
28. Sifət protezi;
29. Göz yuvasının protezi;
30. Damağın protezi;
31. Ehtiyat protezləri (yuxarı ətraflara iş üçün verilir);
32. Yuxarı və aşağı ətraf protezləri üçün kosmetik üzlüklər;
33. Aşağı və yuxarı ətraf və onun ayrı-ayrı bölmələri üçün aparatlar;
34. Sanitar-təchizatlı təkərli oturacaq;
35. Qapalı məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacaq;
36. Açıq məkanda (otaqda) istifadə üçün mexaniki təkərli oturacaq;
37. Mühərrikli təkərli oturacaq;

38. Döşəkcə, ortopedik döşək və yastıqlar;
39. Minik avtomobili;
40. Danışan kitab;
41. Səsli tibbi tonometr;
42. Səsli termometrlər;
43. Kolostoma torbası;
44. Urestoma torbası;
45. Katetr;
46. Hərəkətli qaldırıcı qurğu.